# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Dost Azərbaycan Sizin rəhbərliyinizlə sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, beynəlxalq arenada mövqelərini möhkəmləndirir. Dövlətlərimiz arasında müttəfiqlik qarşılıqlı fəaliyyətinin nizamlanmasına və möhkəmlənməsinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndiririk.

Bizim etimada və yoldaşlığa əsaslanan münasibətlərimizi olduqca yüksək dəyərləndirirəm. Əminəm ki, biz gündəlikdə duran aktual ikitərəfli və regional məsələlərə dair sıx birgə işimizi davam etdirəcəyik.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq və uğurlar diləyirəm. Fürsətdən istifadə edib ailənizə ən səmimi salamlarımı çatdırmağınızı xahiş edirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Gürcüstan xalqı adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, yeni-yeni uğurlar və uzun ömür arzulayıram. Sizin rəhbərliyiniz dövründə ölkənizə və xalqınıza göstərdiyiniz sədaqətli xidmət sayəsində Azərbaycan müasir, uğurlu dövlətə çevrilib.

Qafqaz uzun əsrlərboyu müxtəlif mədəniyyətlərin qovuşduğu, Şərqlə Qərbin birləşməsində böyük rol oynayan region olmuşdur. Bu gün dünyanın çoxsaylı çağırışlarla üzləşdiyi və ciddi dəyişikliklərə məruz qaldığı bir vaxtda ölkələrimiz təkcə bizim regionda deyil, bütövlükdə dünyada sülhün və sabitliyin möhkəmlənməsində mühüm rol oynaya bilərlər. Əminəm ki, biz səylərimizi əsirgəmədən, bu nadir fürsətdən istifadə edərək strateji tərəfdaşlığımızı daha da möhkəmləndirəcək, Qafqazı əlaqə mərkəzinə və regionumuzun tarixi etnik identikliyini əks etdirən qlobal təhlükəsizlik və sabitlik məkanına çevirəcəyik.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə Yeni ildə xoşbəxtlik və firavanlıq arzulayır, bir daha dərin ehtiramımı çatdırır, dost Azərbaycan xalqının əmin-amanlığı və firavanlığı naminə fəaliyyətinizi bundan sonra da uğurla davam etdirəcəyinizə inandığımı bildirirəm.

*Hörmətlə,*

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

İcazə verin, doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırım, ali dövləti fəaliyyətinizdə uğurlar arzulayım. Dostluğumuzdan və Sizə uğurlar arzulamaq imkanından çox məmnunam.

Bir neçə gün əvvəl Sizin Bakıda mənə göstərdiyiniz qonaqpərvərliyi həm siyasi, həm də şəxsi təcrübə və bir çox mövzularla bağlı səmərəli fikir mübadiləsi baxımından məmnuniyyətlə xatırlayacağam. Serbiya Respublikası ilə Azərbaycan Respublikası arasında prinsipial qarşılıqlı dəstək əlaqələri həmişəkindən daha aydın şəkildə özünü göstərir və bu, məni çox sevindirir. Eyni zamanda beynəlxalq hüquq normalarının tez-tez kobud şəkildə pozulmasına qarşı mübarizəyə daim hazır olan Sizin kimi uzaqgörən liderlə dostluğumla fəxr edirəm.

Əziz dostum, bir daha demək istəyirəm ki, Sizi Serbiyada görməyə həmişə şadıq. Tezliklə Sizi ölkəmizdə qarşılamağı, eləcə də Belqradda və Bakıda müəyyənləşdirdiyimiz vəzifələrin və layihələrin reallaşdırılması üçün görülən işləri ətraflı şəkildə nəzərdən keçirməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, xahiş edirəm Sizə ən səmimi arzularımı və yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Aleksandar VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Cənab Prezident, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası həm Cənubi Qafqaz regionunda, həm də beynəlxalq arenada öz mövqelərini möhkəmləndirərək mühüm uğurlara nail olmuşdur. Əminəm ki, bu, gələcəkdə də davam edəcək.

Azərbaycanın Ukraynanın suverenliyi və ərazi bütövlüyünə daimi dəstəyini, eləcə də Rusiya ilə müharibə şəraitində Ukrayna xalqına göstərdiyi yardımı yüksək qiymətləndirirəm. Biz bu cür dəstəyin artacağına ümid edirik.

Əminəm ki, ikitərəfli münasibətlərin mövcud potensialını birgə səylərlə maksimum surətdə reallaşdıra və Ukrayna-Azərbaycan əməkdaşlığını Qara dəniz-Xəzər regionunda təhlükəsizlik və sabitlik naminə daha da möhkəmləndirə bilərik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, güclü və firavan dövlətinizin gələcək inkişafı yolunda uğurlar və yeni nailiyyətlər arzu edirəm.

*Hörmətlə,*

***Volodimir ZELENSKİ,***
***Ukrayna Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, Sizə möhkəm cansağlığı, ruh yüksəkliyi və dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm.

Cənab Prezident, Sizə ən xoş diləklərimi yetirir və ölkənizin gələcək rifahını təmin etmək yolunda daha böyük nailiyyətlər arzulayıram.

Əminəm ki, Xorvatiya və Azərbaycan hətta bu çətin zamanlarda qarşılıqlı əlaqələri, o cümlədən iqtisadi əməkdaşlığı daha da dərinləşdirməkdə davam edəcək.



Cənab Prezident, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Yüksək peşəkarlıq, səriştə və xalqa sədaqət nümunəsi olan keyfiyyətləriniz Sizə həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda haqlı olaraq dərin hörmət qazandırır. Fərəhlə qeyd etməliyəm ki, Sizin strateji baxışlarınız və həyata keçirdiyiniz səmərəli iqtisadi islahatlar Azərbaycan Respublikasının beynəlxalq nüfuzunu və Azərbaycan xalqının rifahını əhəmiyyətli dərəcədə möhkəmləndirib.

Əminəm ki, Cənubi Qafqazda yeni geosiyasi reallıq və nəqliyyat-logistika imkanlarının genişlənməsi Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə şərait yaradacaqdır. Bu münasibətlər bizim aprel və oktyabr aylarındakı ikitərəfli səfərlərimizin yekunları nəticəsində bu il misli görünməmiş səviyyəyə yüksəlmişdir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq, qardaş Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə tükənməz enerji arzu edirəm.

*Hörmətlə,*

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Rusiya Federasiyasının Hökuməti adından və şəxsən öz adımdan Sizi səmimi-qəlbdən təbrik edirəm.

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dostluq, tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin möhkəmlənməsinə Sizin sanballı şəxsi töhfənizi xüsusi qeyd etmək istərdim. Ali səviyyədə qəbul edilmiş qərarların icrası məqsədilə ticari-iqtisadi və investisiya sahəsində əməkdaşlığın genişləndirilməsi, sənaye, energetika, nəqliyyat infrastrukturu və digər istiqamətlərdə qarşılıqlı faydalı iri layihələrin həyata keçirilməsi üçün əlverişli şərait yaradılıb.

Sizinlə həmişə açıq və konstruktiv şəraitdə keçən görüşlərimizi səmimiyyətlə xatırlayıram. Etimada söykənən ünsiyyətimizin davam etməsinə şad olacağam.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzu edirəm.

*Səmimi hörmətlə,*

***Mixail MİŞUSTİN,***
***Rusiya Federasiyası Hökumətinin sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və İdarə Heyətinin üzvləri adından Sizə doğum gününüz münasibətilə ən xoş arzularımızı çatdırırıq. Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə və işğaldan azad etdiyiniz Qarabağda apardığınız bərpa-quruculuq işlərində müvəffəqiyyətlər diləyirik.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin illik Qlobal Bakı Forumunda və mərkəzin dünya üzrə təşkil etdiyi beynəlxalq tədbirlərdə iştirak edən dostları həm də Azərbaycanın dostlarına çevriliblər. Biz ümidvarıq ki, Sizin səyləriniz regionda davamlı sülhün bərqərar olunması, işğaldan azad edilmiş ərazilərin tezliklə yenidən qurulması ilə nəticələnəcək.

Zati-aliləri, fürsətdən istifadə edərək, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz yüksək inam və etimada, həmçinin davamlı böyük dəstəyə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

*Hörmətlə,*

***Vayra VİKE-FREYBERQA,***
***1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri***

***İsmail SERAGELDİN,***
***1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri***

***Boris TADİÇ,***
***2004-2012-ci illərdə Serbiyanın Prezidenti***

***Rosen PLEVNELİYEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti***

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti***

***İv LETERME,***
***2008, 2009-2011-ci illərdə Belçikanın Baş naziri***

***Zlatko LAQUMCİYA,***
***2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri, 2012-2015-ci illərdə Baş nazirin müavini***

***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti***

***Tarya HALONEN,***
***2000-2012-ci illərdə Finlandiyanın Prezidenti***

***Filip VUYANOVİÇ,***
***2003-2018-ci illərdə Monteneqronun Prezidenti***

***Kolinda Qrabar-KİTAROVİÇ,***
***2015-2020-ci illərdə Xorvatiyanın Prezidenti***

***Əmr MUSA,***
***2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi, 1991-2001-ci illərdə Misirin xarici işlər naziri***

***Eka TKEŞELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini***

***Katerina YUŞENKO,***
***2005-2010-cu illərdə Ukraynanın birinci xanımı***

***Marianna VARDİNOYANNİS,***
***UNESCO-nun xoşməramlı səfiri***

***Jan BADERŞNAYDER,***
***Quldarlığın Müasir Formalarının aradan qaldırılması üzrə Qlobal Fondun Şura sədri, 2000-2013-cü illərdə "Exxon Mobile" şirkətinin vitse-prezidenti***

***Mladen İVANİÇ,***
***2014-2015, 2016-2017-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

***Rövşən MURADOV,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin inkişafına böyük şəxsi töhfənizi Rusiyada yüksək qiymətləndirir, Sizi çoxşaxəli Rusiya-Azərbaycan əməkdaşlığının genişləndirilməsinin ardıcıl tərəfdarı kimi tanıyırlar.

Əminəm ki, dinamik surətdə dəyişən beynəlxalq şəraitdə Rusiya ilə Azərbaycanın müttəfiqlik qarşılıqlı fəaliyyəti dost xalqlarımızın mənafeyi, Cənubi Qafqazda və Xəzər regionunda sülhün, sabitliyin təmin edilməsi naminə bundan sonra da genişlənəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Dmitri MEDVEDEV,***
***Rusiya Federasiyasının Təhlükəsizlik Şurası sədrinin müavini***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un Baş katibliyi, üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizin müdrik siyasəti sayəsində Azərbaycan türk dünyasında və beynəlxalq aləmdə aparıcı ölkə kimi tutduğu layiqli yerini davamlı olaraq inkişaf etdirməkdədir.

TÜRKSOY-un Daimi Şurasının qərarı ilə Azərbaycanın mədəniyyət beşiyi Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi və bununla əlaqədar zati-alinizin xüsusi sərəncamı ilboyu Azərbaycanda və digər üzv ölkələrimizdə keçirəcəyimiz tədbirlərlə türk xalqları arasında birlik və həmrəyliyin daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.

Fürsətdən istifadə edərək TÜRKSOY-un fəaliyyətinə göstərdiyiniz diqqət və dəstəyə görə Sizə dərin təşəkkürümü bildirir, bu əlamətdar gündə zati-alinizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Ən dərin hörmət və ehtiramla,*

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Sizi ad gününüz münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı, işlərinizdə böyük uğurlar arzulayıram.

Vətən müharibəsindən sonra Azərbaycanın Qarabağ bölgəsində Sizin rəhbərliyinizlə böyük bərpa işləri həyata keçirilir. Qısa zamanda bir neçə hava limanının, yolların inşası başa çatıb. Digər tərəfdən, bölgəyə Böyük qayıdış təmin edilir, Qarabağa onun tarixi gözəlliyi və dərin mənəvi həyatı qaytarılır.

Siz Azərbaycanın yeni tarixini yazdınız. Sizin rəhbərliyinizlə bu gün Azərbaycan beynəlxalq aləmdə sabit, öz üzərinə düşən öhdəliklərini vaxtında yerinə yetirən ölkə kimi qəbul olunur.

Müəllifi məhz Siz olduğunuz "Cənub qaz dəhlizi" bu gün Avropanın qaz təchizatını həll edir. TANAP, TAP və bu layihələrin davamı olan Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılışı bunu təsdiq edir.

Sizin digər sahələrdə həyata keçirdiyiniz konstruktiv və praqmatik siyasət ölkəmizin inkişafına və insanların rifahına öz töhfələrini verməkdədir.

Möhtərəm cənab Prezident, əminəm ki, həyata keçirdiyiniz siyasət ölkəmizə daha böyük uğurlar və qələbələr gətirəcəkdir.

Sizi doğum gününüz münasibətilə bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, ailə səadəti və ölkəmizi daha yüksək zirvələrə aparan yolda böyük uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi***

❖ ❖ ❖

Möhtərəm Prezident.

Doğum gününüz münasibətilə zati-alinizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan, ali dövləti fəaliyyətinizdə Sizə yeni uğurlar diləməkdən böyük şərəf hissi duyuruq.

Zati-alinizin İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin gənclərinin inkişafı ilə bağlı qəti mövqeyinin ifadəsi olaraq 2004-cü ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Baş Assambleyasının təsis iclasının keçirilməsi, onun İƏT-nin qurumu olaraq beynəlxalq təsisat kimi formalaşmasına və inkişafına güclü dəstəyin davam etdirilməsi, eləcə də İƏT Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinə Azərbaycan hökuməti tərəfindən Bakıda evsahibliyi edilməsi regionun digər liderləri üçün nümunədir. Gənclər Forumunun təsis olunmasını Azərbaycan Respublikasının İƏT-yə verdiyi mühüm töhfə kimi qiymətləndirməyiniz bizi çox qürurlandırır. İƏT Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinin İdarə Heyəti olaraq bizə göstərdiyiniz etimadla, dəstəklə fəxr edir, bu etimadı doğrultmaq üçün səylərimizi əsirgəməməyə çalışırıq.

Prezident və Ali Baş Komandan kimi zati-alinizin Azərbaycanın inkişafına yönəlmiş müdrik siyasətiniz sayəsində ölkənin işğal altındakı torpaqları azad edilmişdir. Zati-alinizin cari ili "Şuşa ili" elan etmək barədə sərəncamınız bu Zəfəri və dirçəlişi yaddaşımıza həkk etdi və bunun bütün dünyada daha geniş tanınmasına səbəb oldu. Bu istiqamətdə bizim təşəbbüsümüzlə yaradılmış "Mənə Azərbaycanı göstər" - Beynəlxalq bloqçuların Şuşa düşərgəsi də fəal iştirak etmiş və 10-dan çox beynəlxalq səyahətçi-bloqçu işğaldan azad edilmiş ərazilərə səfər edərək Qarabağın dirçəlişi haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılmasına töhfə vermişdir.

Bu xoş gününüzdə İƏT ölkələrinin həmrəyliyinə göstərdiyiniz dəstəyə, eləcə də qardaş Azərbaycan xalqının inkişafı naminə yorulmaz fəaliyyətinizə görə Sizə bir daha səmimi arzularımızı bildirməkdən şərəf hissi duyuruq.

Möhtərəm cənab Prezident, Sizə və ailənizə möhkəm cansağlığı, müvəffəqiyyətlər və firavanlıq arzulayırıq. Sizə olan ən yüksək ehtiramımızı və xoş arzularımızı qəbul etməyinizi xahiş edirik.

*Dərin hörmətlə,*

***İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinin İdarə Heyəti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Zati-alinizi ad gününüz münasibətilə təbrik etməkdən şərəf duyur, Azərbaycan xalqı və dövləti naminə misilsiz fəaliyyətinizə, beynəlxalq müstəvidə böyük dəyər kəsb edən səylərinizə Uca Yaradandan uğurlar diləyirik.

Siz müdrikliyinizi yaşınızla, təvəllüd tarixinizlə deyil, əməllərinizlə, dövlətçilik təfəkkürünüzlə təsdiq etmiş dövlət xadimisiniz. Sizin Azərbaycan xalqına bəxş etdiyiniz Qarabağ Zəfəri uğurlu dövlət xadiminin, qalib sərkərdənin doğma xalqına əvəzsiz töhfəsi olub, bəşər tarixinə həkk olunacaq hadisənin miqyasına bərabərdir. Uca Yaradanın lütfü ilə Siz Azərbaycan Ordusunun gücünə, xalqın sarsılmaz həmrəyliyinə və iradəsinə, dövlət-xalq birliyinə əsaslanan müdrik siyasətinizlə Azərbaycanın haqq işinin qələbəsini təmin etdiniz. Azərbaycan torpaqlarının işğaldan azad edilərək ərazi bütövlüyünün bərpası yönündə Ali Baş Komandan olaraq rəhbərlik etdiyiniz qalibiyyətli Vətən müharibəsi haqqın, ədalətin təntənəsi kimi tarixin salnaməsinə həkk oldu. Vətənimizin, regionumuzun gələcəyi üçün bu Zəfərin dəyəri misilsiz, dünyanın inkişaf istiqamətləri baxımından taleyüklüdür.

Uca Yaradan doğru yolda olanların səy və əməllərinə rəvac verir! Biz fəxr edirik ki, dilindən və dinindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşlarına unudulmaz fəxarət anları yaşadan Qarabağ Zəfərinin müəllifi, Azərbaycan xalqının böyük oğlu, müdrik dövlət rəhbərimiz - zati-alinizin qətiyyəti sayəsində dövlət bayrağımız azad Qarabağda dalğalandı, məscidlərimizin minarələrindən azan səsləri ucaldı, işğal dövründə vandalizmə məruz qalmış dini məbədlərimiz əsarətdən qurtuldu. Şükürlər olsun ki, Vətənimizə, millətimizə uğurlar yaşadan bir lider qismətimiz olmuşdur. Böhranları üstələyə bilən, iqtisadiyyatı, yüksək siyasi mədəniyyəti, dini-mənəvi dəyərləri ilə tanınan Azərbaycan dünyaya örnəkdir. Bütün bunlar, heç şübhəsiz ki, Sizin güclü, ardıcıl siyasi iradənizin sayəsindədir. Bu gün Sizin rəhbərliyinizlə multikultural, bəşəri dəyərlərə sadiq Azərbaycan işğaldan azad olunmuş torpaqlarında erməni vandalizminin acı nəticələrini aradan qaldırır, möhtəşəm infrastruktur layihələri, genişmiqyaslı quruculuq işləri reallaşdırır. Allah evlərinin, məbəd və ibadət məkanlarının yenidən inşa-bərpası ilə bağlı qətiyyətli iradə və fəaliyyətiniz bizi hədsiz sevindirir.

Möhtərəm cənab Prezident, dini konfessiya rəhbərləri olaraq, Sizə ölkə daxilində və beynəlxalq müstəvidə təqdirəlayiq fəaliyyətinizə, Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınıza görə dərin minnətdarlığımızı bildirməkdən şərəf duyuruq. Azərbaycançılıq məfkurəsinin ayrılmaz tərkib hissəsi, müxtəlif etnik və dini mənsubiyyət daşıyıcısı olan Azərbaycan vətəndaşlarının mənəvi harmoniya şəraitində bir ailənin üzvləri kimi xoşbəxt yaşamalarını təmin edən multikultural ənənələrimiz dünyanın müxtəlif nöqtələrində yaşayan azərbaycanlılarla vəhdətdə Azərbaycan dövlətinin qüdrətini sarsılmaz etmişdir. Sizin təvəllüd gününüz bizə xoş fürsət verir ki, zati-alinizin dövlətimiz və cəmiyyətimiz üçün böyük xidmətlərinə görə bütün Azərbaycan dindarlarının dərin təşəkkürlərini bir daha ifadə edək. Azərbaycandakı müxtəlif dini konfessiyaların nümayəndələri - dindarlar və din xadimləri fəxr edir və inanırlar ki, Azərbaycanı qalib ölkə, xalqını zəfər çalmış xalq yüksəkliyinə qaldırmış zati-alinizin rəhbərliyi ilə Vətənimiz bundan sonra da yeni zirvələrə yüksələcək, hər zaman uğurlara imza atacaqdır. Sizin ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə bərabər azad Qarabağın dirçəldilməsi yönündə həyata keçirdiyiniz genişmiqyaslı quruculuq işləri, Allah evlərinin, məbəd və ibadət məkanlarının yenidən inşa-bərpası ilə bağlı iradə və fəaliyyətiniz bizi hədsiz sevindirir. Qısa zamanda Azərbaycanın Qarabağ torpaqları Sizin yenilməz siyasi iradəniz sayəsində öz yeni, nəfis görkəmi, möhtəşəm infrastrukturu, yol layihələri, abad şəhər və kəndləri, beynəlxalq hava limanları ilə hər birimizi sevindirir. XXI əsrdə zati-alinizin müdrik rəhbərliyi ilə qazandığımız böyük nailiyyətlər, həyata keçirdiyiniz müstəqil daxili və xarici siyasət Azərbaycanı yalnız regionda deyil, beynəlxalq miqyasda söz sahibi olan bir ölkə zirvəsinə yüksəltmişdir. Təvəllüd gününüzdə dünyanın müxtəlif nöqtələrindən təbriklər qəbul edən qalib xalqın müzəffər sərkərdəsi olaraq Sizin ən böyük mükafatınız xalqın dəstək və həmrəyliyi, sonsuz məhəbbəti, dərin etimad və hədsiz minnətdarlığıdır. Var olun, hər zaman zirvədə olun, uğur həmişə Sizə yar olsun! Zati-alinizi və Azərbaycanın əmin-amanlığını, tərəqqisini təmin edən siyasi dəst-xəttinizi, beynəlxalq miqyasda insan həmrəyliyinə xidmət edən ideyalarınızı dəstəkləyən, hər zaman diqqət, qayğı və himayənizi hiss edən biz dindarların duaları həmişə Sizinlədir!

Möhtərəm cənab Prezident! Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların Məşvərət Şurası adından Sizi - Azərbaycan Prezidentini, Müzəffər Ali Baş Komandanı ad gününüz münasibətilə ürəkdən təbrik edir, ölkə dindarlarının iradəsini ifadə edərək zati-alinizə və dəyərli ailənizə cansağlığı, xoşbəxtlik, dövlətçiliyimiz naminə fəaliyyətinizdə uğurlar diləyirik. Sizin qlobal müstəvidə dinlər və sivilizasiyalararası dialoq işinə verdiyiniz böyük əməli töhfələri yüksək dəyərləndirən nüfuzlu din xadimlərinin səmimi təbrik və xoş arzularını zati-alinizə çatdırmaqdan məmnunluq duyuruq.

O Bir Olan Yaradanımız hər zaman yardımçınız olsun, öz lütf və mərhəmətini Azərbaycan xalqı, dövləti və onun müdrik Prezidenti üzərində bərqərar etsin, Azərbaycanı hifz etsin! Amin!

*Dərin hörmət və ehtiramla,*

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***

***Milix YEVDAYEV,***
***Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri***

***Arximandrit Aleksiy NİKONOROV,***
***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi***

***Yepiskop Vladimir FEKETE,***
***Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol prefekturasının ordinarisi***

***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri***

***Robert MOBİLİ,***
***Alban-udi Xristian Dini İcmasının sədri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə "VTB Bank"ın İdarə Heyəti və kollektivi adından səmimi təbriklərimizi qəbul edin.

Uzun illər boyu ölkənizə sədaqətlə xidmət etməyiniz Sizə Azərbaycan xalqının etimadını və vətəndaşların geniş dəstəyini qazandırıb.

Azərbaycan Respublikası iyirmi ilə yaxındır ki, Sizin rəhbərliyinizlə iqtisadi və sosial sahədə sanballı nəticələr qazanır, beynəlxalq arenada nüfuzunu ardıcıl olaraq möhkəmləndirir, müasir dövrün mürəkkəb çağırışları şəraitində milli inkişaf potensialını dinamik şəkildə reallaşdırır.

Ölkələrimizin qarşılıqlı sabit müttəfiqlik fəaliyyətinin daha da möhkəmlənməsi üçün şəxsən Sizin göstərdiyiniz böyük səyləri, ortaq tariximizi, insanlar, o cümlədən sahibkarlıq cəmiyyətləri arasında yaranmış mehriban qonşuluq və dostluq əlaqələrini qoruyub saxlamağı zəruri hesab etməyinizi Rusiyada yüksək qiymətləndirirlər.

Fürsətdən istifadə edib "VTB Bank"ın Azərbaycandakı təşəbbüslərinə və layihələrinə diqqətinizə görə Sizə təşəkkür edirəm. Bu bankın ehtiyac duyulan maliyyə vasitələri və xidmətləri ilə zənginləşməsinə bundan sonra da kömək göstərilməsini vacib və perspektivli hesab edirik.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Azərbaycanın inkişafı ilə bağlı planlarınızın uğurla həyata keçməsini, Sizə və yaxınlarınıza tükənməz qüvvə, sağlamlıq, əmin-amanlıq diləyirik.

*Dərin hörmətlə,*

***Andrey KOSTİN,***
***"VTB Bank" Publik Səhmdar Cəmiyyətinin prezidenti - İdarə Heyətinin sədri***

❖❖❖

Zati-aliləri.

Doğum gününüz münasibətilə "LUKOYL" Publik Səhmdar Cəmiyyətinin rəhbərliyi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi qəbul edin.

Sizə xas olan müdriklik, sağlam mühakimə, prinsipiallıq qarşıya çıxan hər bir məsələni səmərəli şəkildə həll etməyə və ali dövləti vəzifənizi uğurla yerinə yetirməyə imkan verən keyfiyyətlərdir. Sizin rəhbərliyinizlə Azərbaycan sabit iqtisadi artımın müsbət dinamikasını, investisiya mühitinin yaxşılaşmasını, beynəlxalq əlaqələrin və əməkdaşlığın genişlənməsini nümayiş etdirir. Siz haqlı olaraq ölkə vətəndaşlarının tam dəstəyini və etimadını, xarici həmkarlarınız və tərəfdaşlarınızın nüfuz və hörmətini qazanmısınız.

Fürsətdən istifadə edib Azərbaycan Respublikasında "LUKOYL"un fəaliyyətinə şəxsən göstərdiyiniz daimi dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirmək istərdim. İcazə verin, Sizi əmin edim ki, biz ölkələrimizin rifahı naminə birgə layihələrin daha da inkişaf etdirilməsi üçün daim səy göstərəcəyik.

Zati-aliləri, icazə verin, bu əlamətdar gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, ruh yüksəkliyi, firavanlıq və ali dövləti fəaliyyətinizdə daha böyük uğurlar arzu edim.

*Hörmətlə,*

***Vadim VOROBYOV,***
***Rusiyanın "LUKOYL" Publik Səhmdar Cəmiyyətinin baş icraçı direktoru***

❖❖❖

Əziz İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, ailə sevinci, tükənməz həyat enerjisi, ölkənizin və xalqınızın rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzu edirəm.

Biz - tələbə dostlarınız Sizin rəhbərliyinizlə Azərbaycanın həm ölkə daxilində, həm də beynəlxalq arenada qazandığı uğurlara görə ürəkdən fəxr edirik.

Azərbaycan xalqının Sizin rəhbərliyinizlə qazandığı tarixi qələbələr nəticəsində bu uğurlar xüsusilə parlaq şəkildə təzahür edib.

Sizin yürütdüyünüz müdrik və düşünülmüş xarici siyasət sayəsində bu qələbələr üçün zəmin yaranıb, Ali Baş Komandan kimi istedadınız, Azərbaycan əsgər və zabitlərinin qəhrəmanlığı işğal altındakı torpaqları öz halal sahibinə qaytarıb.

İşğaldan azad edilmiş ərazilərin qısa müddətdə bərpası onu göstərir ki, çox yaxın gələcəkdə Qarabağ Azərbaycanın incisinə çevriləcək. Füzuli Beynəlxalq Aeroportu və regionda yaradılmış maddi-texniki infrastruktur bu nailiyyətlərin parlaq nümunəsidir.

Əziz İlham Heydər oğlu, Sizi bir daha əmin etmək istəyirik ki, bizə verilən hər bir tapşırığı yerinə yetirməyə hazırıq.

İcazə verin, Sizə bir daha ən xoş arzularımı, planlarınızın və ideyalarınızın tezliklə gerçəkləşməsi diləklərimi bildirim.

*Hörmətlə, Sizə sadiq olan*

***Yuri ÇAXUNAŞVİLİ,***
***"SOCAR Energy Georgia" MMC-nin baş direktorunun müşaviri***

❖❖❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Zəngin həyat və peşəkar təcrübəniz, təşkilatçılıq istedadınız, şəxsi keyfiyyətləriniz haqlı olaraq Sizə ölkədə və onun hüdudlarından kənarda həmkarlarınızın və tərəfdaşlarınızın hörmətini qazandırıb. Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə inamla irəliləyir, davamlı və dinamik inkişaf nümayiş etdirir. Aktual dövləti məsələlər uğurla həll edilir, investisiya mühitinin yaxşılaşdırılmasına və xarici tərəfdaşlarla ticari-iqtisadi əməkdaşlığın genişləndirilməsinə yönəlmiş ardıcıl iş aparılır.

Fürsətdən istifadə edib Azərbaycan Respublikasında "LUKOYL"un layihələrini dəstəklədiyinizə görə Sizə dərin təşəkkürümü bildirirəm. Sizi əmin edirəm ki, biz ölkələrimizin mənafeyi naminə azərbaycanlı tərəfdaşlarımızla fəal və qarşılıqlı faydalı işi da-

v

Zati-aliləri, icazə verin, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzu edim.

*Hörmətlə,*

***Vahid ƏLƏKBƏROV,***
***Rusiyanın "LUKOYL" Publik Səhmdar Cəmiyyətinin sabiq prezidenti***

❖❖❖

Möhtərəm cənab Prezident.

İcazə verin, doğum gününüz və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Sizi Rusiya Notariuslar Assosiasiyası adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edim, Sizə möhkəm cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və doğma Azərbaycanın rifahı naminə yeni-yeni uğurlar diləyim.

Bu gün Sizin həmvətənləriniz, dostlarınız və məsləkdaşlarınız bu mürəkkəb tarixi dövrdə Azərbaycan xalqının öz Prezidenti və Ali Baş Komandanı başda olmaqla suveren maraqlarını necə inamla və ardıcıl surətdə qoruduğunu, iqtisadi və siyasi nailiyyətlərini artırdığını, müdafiə qabiliyyətini və beynəlxalq mövqelərini möhkəmləndirdiyini, doğma Qarabağın hər qarış torpağının qorunmasında qətiyyətli olmasını bütün dünyaya nümayiş etdirdiyini, quruculuq fəaliyyəti ilə ölkənin daha sürətli inkişafı və firavanlaşması üçün möhkəm zəmin yaratdığını böyük qürurla və diqqətlə izləyirlər.

Ulu Tanrı köməyiniz olsun, ali missiyanızı həyata keçirmək üçün Sizə səbir, güc və uğurlar bəxş etsin!

Qoy qarşıdan gələn il Sizin üçün və doğma Azərbaycan üçün uğurlu, parlaq hadisələrlə, yeni xeyirxah işlər və nailiyyətlərlə zəngin olsun!

Sizə və yaxınlarınıza xoşbəxtlik, firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Natiq AĞAMİROV,***
***Rusiya Notariuslar Assosiasiyasının sədri, Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti, professor***

❖❖❖

Çox hörmətli cənab Prezident, sevimli Ali Baş Komandan!

Azərbaycan xalqının və türk dünyasının qəhrəmanı İlham Heydər oğlu Əliyev.

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizə uzun ömür və möhkəm cansağlığı diləyirəm.

Qarabağın Ermənistanın işğalından azad edilməsinin və Azərbaycanımızın ərazi bütövlüyünün bərpa olunmasının, türk dünyasının qırılmış bağının yenidən birləşdirilməsinin ikinci ildönümünü bu il xalqımızla birlikdə qeyd etdik. Sizin illərdir müdrikliklə və uzaqgörənliklə atdığınız addımlar bu böyük uğurlara yol açdı. Bütün bunlar üçün Sizə sonsuz minnətdarlığımı bildirirəm.

Sizi bir daha ailəmiz adından doğum gününüz münasibətilə təbrik edirəm, möhkəm cansağlığı və uzun ömür arzulayıram. Yaşasın böyük Azərbaycan!

*Dərin hörmət və ehtiramla,*

***Komandir Nəimi ƏMİRAL,***
***ABŞ Hərbi Dəniz Qüvvələri 5-ci Donanmasının Bəhreyn Beynəlxalq əlaqələr şöbəsinin rəisi***

❖❖❖

Möhtərəm cənab Prezident.

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, uzun ömür, möhkəm cansağlığı arzulayıram.

Siz bu gün yaşadığım Almaniyada, eləcə də mütəmadi səfərlərdə olduğum Avropa ölkələrində istər siyasi müstəvidə, istərsə də qeyri-siyasi sferada xüsusi sevgi, hörmət və rəğbət bəslənən bir Lidersiniz. Bunun hər dəfə canlı şahidi olmaq ürəyi daim Vətənlə döyünən biri kimi mənim üçün xüsusi qürurvericidir. Bu sevgini və hörməti Siz özünüz qazanmısınız.

Dövlətçilik ənənələrinə sadiq olan, dövlətçilik prinsiplərini əsas tutan gənclərin yetişməsində göstərdiyiniz xüsusi diqqət və nümunəvi mövqeyiniz məndə və digər gənc dostlarımızda hər zaman böyük ruh yüksəkliyi yaradıb.

Siz həm də biz gənclərə atanın və onun vəsiyyətinin müqəddəsliyi dərsini nümayiş etdirdiniz. O ata vəsiyyəti ki, məhz ona əməl edilməsi nəticəsində doğma Vətənimiz bütövləşdi və biz dünyada yenidən milli kimliyimizi qazandıq.

Azərbaycanımızı dünyada qalib ölkəyə, söz və nüfuz sahibinə çevirdiyinizə görə Sizə təşəkkür edirəm.

Sizi həm öz adımdan, həm də hər zaman diqqətinizi görən ailəmiz adından bir daha təbrik edirəm.

*Hörmətlə,*

***Nuran ABDULLAYEV,***
***Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Köln Universiteti Klinikasının Diaqnostik və İnvaziv Radiologiya İnstitutunun şöbə müdiri, tibb elmləri doktoru, dosent***

❖❖❖

Hörmətli cənab Prezident.

Sizi doğum gününüz münasibətilə İmadəddin Nəsiminin nəvələri, Hələb türkmənləri adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı bildirməkdən məmnunluq duyuram. Siz Azərbaycanın yeni tarixini yazdınız.

Sizə möhkəm cansağlığı, rifah və ali dövləti fəaliyyətinizdə daha böyük uğurlar diləyir, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Muxtar Fatih BEYDİLİ,***
***İzmirdəki Türkmən Həkimləri Dərnəyinin sədri***